# Tarixin ən qanlı faciəsi - Xocalı soyqırımı

## Erməni vəhşiliyinin bariz nümunəsi



***Xocalı soyqırımının 26-cı il ildönümü ilə əlaqədar Qəbələ rayon təhsil şöbəsində tədbir keçirilib. Tədbirdə şöbənin işçiləri, ümumtəhsil məktəblərinin müəllimləri iştirak ediblər.***

Mərasimdə Xocalı soyqırımında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Toplantını giriş sözü ilə açan şöbənin işçisi Tərbiyə İsayeva Xocalı faciəsinin dəhşətlərindən danışıb. Natiq bildirib ki, Xocalı qətliamı XX əsrin ən dəhşətli, ən qəddarcasına törədilmiş Xatın, Xirosima soyqırımları ilə eyni səviyyədə durur.

Savalan kənd tam orta məktəbinin tarix müəllimi Zamiq Əzizov "Əsrin qan yaddaşı" mövzusu ilə məruzə edib.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Mədinə Qasımova Xocalıda ermənilərin törətdiyi soyqırımından beynəlxalq təşkilatların bu hadisəyə ikili münasibətindən söz açıb. Təhsil şöbəsi metodkabinetin müdiri Arifə Bayramova çıxışında Xocalı soyqırımı qurbanlarının qanının yerdə qalmayacağını vurğulayıb.

Tədbir 5 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında Xocalı faciəsinə həsr olunmuş kompozisiya ilə başa çatıb.

**Səfa ASLANOV,**
**"Qəbələ"**

## Xocalı faciəsinin 26-cı ildönümü

***Əsrlər keçəcək 1992-ci il fevral ayının 26 -da Xocalı əhalisinin başına açılan oyun heç bir Azərbaycalının yadından çıxmayacaq. Həmin gecə XX əsrin ən böyük faciəsi olan Xocalı qırğını baş verib. Yüzlərlə insan al qanına qəltan edilib, qətlə yetirilib. Kinli düşmən kimsəyə aman verməden ağbirçək anaya da güllə atıb, ağsaqqal qocaya da, südəmər körpəyə də. Həmin gecə yüzlərlə ana övladsız, körpələr anasız, gəlinlər ərsiz qalıb.***

Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə Xocalı faciəsinin 26-cı il dönümünə həsr olunmuş anım tədbiri keçirilib. Şagirdlərin ifasında Xocalı hadisələrini, qanlı qətliamı təsvir edən ədəbi-bədii kompozisiya, söylənilən şeirlər tədbir iştirakçılarını duyğulandırıb.

**Nurdanə MÜZƏFFƏROVA,**
**məktəbin direktor müavini.**

## Tibbi müayinə davam edir

Ölkə başçışının tapşırığına əsasən respublikamızın hər yerində olduğu kimi, Qəbələ də əhalinin tibbi



müayinədən keçirilməsi uğurla davam edir.

Əhalinin kütləvi tibbi müayinəsi üçün rayonumuzda hər cür şərait yaradılıb. Sakinlər həkim briqadaları tərəfindən hərtərəfli müayinə edilir, lazım gəldikdə müalicə olunmaq üçün ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilir.

Mayın 1-dək rayon əhalisinin 18 yaşdan yuxarı 73226 nəfərinin tibbi müayinə olunması nəzərdə tutulub.

İndiyədək 2745 nəfər tibbi müayinədən keçib. Onlardan 383 nəfər ambulator, 53 nəfər stasionar müalicəyə cəlb edilib, 20 nəfər isə daha ətraflı müayinə və müalicə olunmaq üçün Bakı şəhərinə göndərilib.

**"Qəbələ"**

## Unutmayaq, unutdurmayaq

***Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində silsilə tədbirlər keçirilmişdir. Xocalı həftəsi çərcivəsində keçirilən erməni vəhşiliyinə həsr olunmuş rəsm sərgisində məktəblilərin işlədiyi şəkillər o qanlı hadisənin ağırlığını bir daha gözlər önünə gətirmişdir. Məktəbin II$^{c}$, II$^{e}$ və III$^{b}$ siniflərinin kitabxana kollektivi ilə birlikdə hazırladıqları kompozisiyada körpə fidanların çıxışlarını izləyənlərin gözləri önündə o məsum gecədə Xocalıda baş verənlər bir daha canlanmışdır.***

26 fevral tarixində məktəbdə birinci dərslər Xocalı faciəsinə həsr olunmuşdur. Məktəbin uşaq birliyinin rəhbəri Aygül Nəbiyeva, ədəbiyyat müəllimi Ramin Nəbiyev şagirdlər qarşısında Xocalı faciəsinə həsr olunmuş geniş məruzə etmişlər.

Xocalı faciəsinə həsr olunmuş ümumməktəb tədbirini məktəbin direktoru Ədilə Əliyeva açaraq bildirmişdir ki, xalqımızın yaddaşına qanla yazılmış Xocalı faciəsini törədən erməni vəhşiliyi barədə gənc nəsil həmişə məlumatlandırılmalı, dəhşətli qətliam heç vaxt unudulmamalıdır. Bu sahədə müəllimlərin üzərinə böyük vəzifələr düşür.

Tədbirdə məktəb direktorunun müavini Aynur Qədirova, müəllimlərdən Şəhla Hüseynova, Firmayə İsmayılova, Aybəniz Sərkərova, Sevda Sədiyeva, Könül Tağıyeva, Sevinc Məmmədova, Füzuli rayonundan məcburi köçkün Araz İsbəndiyarlı, zabit Rəfail Sərkərov və başqaları çıxış etmişlər. Sonda məktəblilərin ifasında Xocalı faciəsinə həsr olunmuş kompozisiya nümayiş olunmuş, Vətənə, şəhidlərə, Xocalıya həsr olunmuş şeirlər söylənilmişdir.

**Ruhiyyə KƏRİMOVA,**
**məktəbin müəllimi.**

## Xocalını unutmuruq

***Qəbələ Mədəniyyət Mərkəzində rayon mərkəzləşdirilmiş kitabxanalar sistemi və rəsm qaleriyasının birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 26-cı il dönümü ilə əlaqədar anım günü keçirilmişdir.***

***Tədbirdə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Regional mədəniyyət və turizm İdarəsinin Qəbələ rayonu üzrə baş məsləhətçisi Nargilə Qafarova tədbir iştirakçılarına Xocalı faciəsi haqqında geniş məlumat verib. O, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ən müasir silahlarla silahlanmış erməni cəlladlarının keçmiş sovet ordusunun 366-cı alayının iştirakı ilə Xocalıda törətdiyi vəhşiliklərdən danışaraq həmin gecə şəhərin yerlə yeksan edildiyini, günahsız mülki əhaliyə-- qadınlara, uşaqlara, qocalara divan tutulduğunu bildirib. Nargilə Qafarova xüsusi qəddarlığı ilə seçilən təcavüz aktının təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət olduğunu vurğulayıb. Qeyd olunub ki, əsrin əvvəllərindən başlayaraq erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırım aksiyaları törədilib, lakin Xocalı soyqırımı bunların ən dəhşətlisi olub.

Daha sonra MKS-nin direktoru Anar Rüstəmli çıxış edərək Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğunu bildirib. O, xalqımızın zaman-zaman erməni millətçi-şovinistləri tərəfindən davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qaldığını, soydaşlarımızın doğma torpaqlarından qovulub qaçqına, məcburi köçkünə çevrildiyini və bütün bunların ermənilər tərəfindən törədilən kütləvi qırğınlarla müşayiət olunduğunu deyib. Anar Rüstəmli qeyd edib ki, 1988-ci ildən Dağlıq Qarabağ ətrafında baş verən hadisələr Azərbaycanın tarixi ərazisində kəndlərin, şəhərlərin dağıdılması, on minlərlə günahsız insanın həlak olması, yüz minlərlə soydaşımızın öz ata-baba torpaqlarından didərgin düşməsi ilə nəticələnib. Beynəlxalq hüququn bütün normalarına zidd olaraq Ermənistanın Dağlıq Qarabağı zorla, silah və qırğınlar vasitəsilə özünə birləşdirmək istəyi XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımının törədilməsinə gətirib çıxarıb.

Mədəniyyət mərkəzinin direktoru Malik Ağayev çıxışında vurğulayıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı faciəsi bəşəriyyətə qarşı törədilən ən ağır, ən qatı cinayətlərdən biridir. Bu soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qocalar olmaqla - 613 nəfər Xocalı sakinin qətlə yetirildiyini, 8 ailənin tamamilə məhv edildiyini, 25 uşağın hər iki valideynini, 130 uşağın isə valideynlərindən birini itirdiyini qeyd edən Malik Ağayev erməni cəlladlarının gülləsi ilə yaralanan 487 nəfərin 76-sının uşaq olduğunu, 1275 nəfər dinc şəhər sakinin əsir, 150 xocalılının itkin düşdüyünü diqqətə çatdırıb.

Tədbir iştirakçıları Xocalı qətliamının tarixdə misli görünməmiş ən dəhşətli etnik təmizləmə, soyqırımı hadisəsi olduğunu qeyd edərək, Vətən torpaqlarının azad ediləcəyi günün uzaqda olmadığını bildiriblər.

**Günel QARAYEVA,**
**mərkəzi kitabxananın işçisi.**

## Bəşəriyyət tarixinin qanlı faciəsi

***Turizm və otelçilik üzrə peşə tədris mərkəzində Xocalı soyqırımının 26-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir.***

***Tədbir iştirakçıları əvvəlcə Xocalı faciəsində şəhid olmuş soydaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***

Tədris mərkəzinin direktoru Eyvaz Kazımov tədbiri açaraq, soyqırım qurbanlarının xatirəsinin heç vaxt qəlblərdən silinməyəcəyini bildirib. Natiq çıxışında qeyd edib ki, ölkə prezidentimiz , ali baş komandan İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində itirilmiş torpaqlarımız qısa zaman ərzində geri qaytarılacaq, ermənilər tərəfindən qətlə yetirilmiş soydaşlarımızın qanı yerdə qalmayacaq.

Tədris mərkəzinin müəllimi İlham Əfəndiyev çıxış edərək bildirib ki, 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə baş verən Xocalı soyqırımı ermənilərin uzun illərdən bəri Azərbaycanda törətdikləri cinayətlərin ən dəhşətlisi olmuşdur. Məruzəçi qanlı gecədə törədilmiş faciədə şəhid olanların, itkin düşənlərin, girov götürülənlərin sayını bir daha toplantı iştirakçılarına xatırlatmışdır.

Tədbirdə söz alan istehsalat təlim ustası Mərifət Aslanov, tədris mərkəzinin müəllimi Carul Babayev, mərkəzin şagirdi Fuad Mahmudov qanlı faciə barədə danışıblar.

Tədbirin sonunda tədris mərkəzinin şagirdləri Vəfa Sərxanlı, İlahə Məhəmmədli Xocalı soyqırımına həsr olunmuş şeirlər söyləyiblər.

Mərkəzin direktor müavini Reyhan Məmmədova məlumat verib ki, 2018-ci ilin fevral ayında "Xocalı" həftəsi çərçivəsində tədris mərkəzində Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisi, xatirə gecəsi və digər tədbirlər keçirilib.

Azərbaycan xalqı insanlığa qarşı törədilmiş bu qətliamın günahkarlarının cəzalanacağına inanır və o günü səbirsizliklə gözləyir.

**Səbinə CAHANGİRLİ,**
**tədris mərkəzinin müəllimi.**

## Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilmişdir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsi tərəfindən Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. İlk öncə Xocalı faciəsi zamanı həlak olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri şöbənin müdiri Elçin Əliyev açaraq 26 il əvvəl Xocalıda baş verən dəhşətli soyqırımı haqqında geniş məlumat vermişdir.

Çıxış edənlərdən Arzu Hacıyev, Elçin Məmmədov və başqaları son illər ölkə rəhbərliyininin yürütdüyü məqsədyönlü xarici siyasət nəticəsində Xocalı soyqırımının beynəlxalq aləmə çatdırılması üçün böyük iş görüldüyünü vurğulamışlar. Bunun nəticəsi olaraq bir sıra ölkələrin parlamentlərində Xocalı hadisəsi ermənilərin azərbaycanlılara qarşı törətdiyi soqırımı kimi tanınmışdır.

Çıxış edənlər eyni zamanda Xocalı soyqırımının əsas mahiyyəti barədə gənc nəslin daim məlumatlandırılmalı olduğunu xüsusi qeyd etmişlər.

**Orxan İSKƏNDƏRLİ,**
**şöbənin əməkdaşı.**